# Türk dövlətləri arasında ortaq iqtisadi gələcək




**İyunun 10-da Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) tərəfdaşlığı, Kiçik və Orta Biznesin Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və "ROK Expo" şirkətinin təşkilatçılığı ilə Baku Expo Mərkəzində II Türk Ticarət Sərgisi - Türk Dövlətləri Ticarət və İnvestisiya Əməkdaşlıq Forumu və Sərgisinin açılışı olub.**

Türk dövlətlərinin dünya ticarətinin 3,5 faizini təmin etdiyini deyən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı dünya iqtisadiyyatında 1,8 faiz, ticarətdə payın bundan 2 dəfə çox olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Türk dünyasını vahid dövlət kimi qəbul etsək, bu coğrafiya dünyanın ən böyük 10 iqtisadiyyatından biri sayılardı. Türk dünyasının sənaye potensialı 540 milyard dollar, kənd təsərrüfatı potensialı 140 milyard dollardır.

Bildirilib ki, Türk dünyasında inteqrasiya və inkişaf prosesi sürətlə davam edir. Avropa İttifaqının təqdim etdiyi "Global Gateway", Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü və Orta Dəhliz layihələri Türk dünyasının coğrafiyası üzərində qurulub. 2024-cü ildə Türk dövlətlərinə investisiya qoyuluşu 440 milyard dollar idisə, bunun 290 milyard dollardan çoxu Türkiyənin payına düşürdü.

"Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin prezidenti Zakir Nuriyev bildirib ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkiyə və Şimali Kipr Türk Respublikası bank sektorlarının ümumi aktivləri 1 trilyon 364 milyard dollara çatır. Onun sözlərinə görə, bu, ötən ilin sonu ilə müqayisədə 15,1 faiz artım deməkdir. Türk dövlətləri arasında bank əməkdaşlığı daha da güclənməkdədir. Trans-Xəzər qaz boru kəməri üzrə xərclərin optimallaşdırılması layihənin maya dəyərini potensial olaraq 40 faiz azalda bilər. Bu isə banklarımız üçün layihə maliyyələşdirilməsində uzunmüddətli alətlərə olan tələbi artırır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədr müavini Samir Hümmətovun fikrincə, KOBİA-nın mandatına daxil olan əsas məsələlərdən biri KOB subyektlərinin istehsal etdikləri məhsulların tanıdılmasıdır. Tədbirin əhəmiyyəti yalnız sərgi ilə məhdudlaşmır. Türk dövlətlərinin bir araya gəlməsi, müxtəlif şirkətlərin fərqli məhsullarla çıxış etməsi ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi nöqteyi-nəzərindən vacib platforma rolunu oynayır.



Şimali Kipr Türk Respublikasının iqtisadiyyat və enerji naziri Olgun Amcaoğlunun sözlərinə görə, Türk dünyasının həm iqtisadi, həm də mənəvi olaraq bir araya gəlməsi və bu kimi tədbirlərdə birgə iştirakı əksər ölkələrə ümid çırağı yandırır. O bildirib ki, gələcəkdə qarşıya qoyulan məqsədlərə çatmaq üçün var gücümüzlə çalışırıq və buna davam edəcəyik. 250 milyona yaxın insanın yaşadığı geniş coğrafiyanı əhatə edən Türk dünyası həm böyük iqtisadi potensiala, həm də ortaq mədəniyyətə malikdir.

Türkiyənin Azərbaycandakı səfirliyinin ticarət üzrə baş müşaviri Murat Yaman bəyan edib ki, Türk dövlətləri strateji çoğrafi mövqeyə malikdir: "Biz dünya miqyasında çox mühüm yerüstü və yeraltı sərvətlərin sahibləriyik. Təxminən 1,6 trilyon dolları dəyərində ümumi daxili məhsula və 1,5 trilyon dollara yaxın ticarət dövriyyəsinə malik olan, dünya ticarət yolları üzərində yerləşən bir Türk Dövlətləri Təşkilatımız var. Təəssüf ki, mövcud ticarət dövriyyəsi potensialı tam əks etdirmir. TDT və bu kimi birliklər çərçivəsində Türk dövlətləri öz aralarında siyasi, iqtisadi, mədəni və ticarət əlaqələrini inkişaf etdirməli, qarşılıqlı ticarəti və sərmayələri artırmalıdırlar".

Türk Ticarət Sərgisi Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası arasında ticarət, sənaye, investisiya, texnologiya və xidmətləri inkişaf etdirmək və bu xidmətlərin dünyanın digər yerlərində marketinqini asanlaşdırmaq məqsədi daşıyan 8 ölkənin dövlət qurumları tərəfindən dəstəklənən, türk dövlətlərinin iş dünyasının ən böyük görüşü olan sərgi və forumdur.

Sərgidə 20-dən çox sahə üzrə məhsullar və yeni texnologiyalar sərgiləncək, ölkələrin investisiya imkanları, mühüm sektorlar, iş insanlarının problemləri, həlli təklifləri və digər aktual məsələlər ekspert məruzəçilərlə müzakirə olunur. İyunun 12-dək davam edəcək sərgidə 11 ölkə iştirakçı, 20-dən çox ölkə isə ziyarətçi kimi iştirak edir.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**